AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

# RİSALƏ

*Araşdırmalar toplusu*

# 12



**Bakı – "Elm və təhsil" – 2016**

*Azərbaycan Milli Elmlər Akademiyası*
*Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi*
*Elmi Şurasının 15 sentyabr 2016-cı il tarixli (protokol № 7)*
*qərarı ilə çap olunur*

***Redaktor:*** AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru,
professor
**Rafael HÜSEYNOV**

**Redaksiya heyəti:**
**Kamil Allahyarov, filologiya elmləri doktoru, professor**
**Xatirə Bəşirli, filologiya elmləri doktoru**
**Şəfəq Əlibəyli, filologiya elmləri doktoru**
**Aida Qasımova, filologiya elmləri doktoru, professor**

**Məsul katib:**
**Kəmalə Nuriyeva**

**Risalə. Araşdırmalar toplusu. 12-ci kitab**
**Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2016, 212 səh. Şəkilli**

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin beş topludan ibarət elmi-tədqiqat "Xəmsə"sinə ["Şərq" (Tərcümə toplusu), "Məclis" (Mərasimlər toplusu), "Xəzinə" (Kataloqlar toplusu), "Qaynaq" (Mənbələr toplusu)] daxil olan "Risalə" Araşdırmalar toplusunun bu sayı akademik Rafael Hüseynovun rəhbəri olduğu gənc alimlərin məqalələrindən tərtib edilmişdir. Məqalə müəllifləri arasında elmlər doktorları, fəlsəfə doktorları da var, dissertasiya müdafiəsinə hazırlaşan cavan tədqiqatçılar da. Akademik Rafael Hüseynovun elmi məktəbinin təmsilçiləri olan bu araşdırıcılar Azərbaycan klassik və müasir ədəbiyyatının bir sıra aktual və az öyrənilmiş problemlərinə yeni görüş bucağından yanaşırlar.

**© AMEA Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**© 2016**

**Bəxtiyar ƏSGƏROV**
**Filologiya üzrə fəlsəfə doktoru**

**Açar sözlər**: tarixi roman, yazıçı, bədii düşüncə, tarix problemi
**Key words**: historical novel, a writer, artistic thinking, historical problem.
**Ключевые слова**: исторический роман, писатель, художественное мышление, историческая проблема

## BƏDİİ DÜŞÜNCƏDƏ YAZIÇI VƏ TARİX PROBLEMİ

Azərbaycan bədii düşüncəsində tarixi mövzulara meylin yaşı çox olsa da, yazıçı və tarix probleminin tarixi o qədər də uzağa getmir. Xüsuslilə XIX əsrin sonundan başlayan tarixə müraciət intensiv xarakter aldıqca yazıçı və tarix, tarixin bədii inikası, tarixi düşüncə vüsəti məsələləri diqqət mərkəzində olmuşdur. Tarixin bədii yaradıcılığın mənbələrindən birini təşkil etməsi prosesindən (bu proses ötən yüzilliyin 30-cu illərindən başlayaraq bugünə qədər davam edir) sonra daha kəskin və aktual şəkildə qarşıda duran əsas problemlərdən biridir. Bu illərdən başlayaraq tarixi mövzuya maraq artdığı kimi, tarixdən yazılan əsərlərə də oxucu marağı artmağa başladı. Lakin elə bu vaxtdan başlayaraq yazıçı və tarix problemi ilə bağlı nəzəri fikirdə yaranan mübahisələr bu gün də bu və ya başqa şəkildə davam edir. Əlbəttə, bu mübahisələrin məzmunu zaman dəyişdikcə dəyişir və inkişaf edir; 1930-40-cı illərdə yazıçı və tarix problemi 70-80-ci illərin nəzəri pəncərəsindən, yaxud postmodernist düşüncənin tarixə baxışından əsaslı şəkildə fərqlənir. Dövrdən, zamandan və ideoloji meyillərdən asılı olaraq tarixə, ayrı-ayrı tarixi hadisələrə və şəxsiyyətlərə baxış dəyişir. Ona görə də yazıçı və tarix problemi, bədii düşüncədə tarix konsepti sistemli araşdırma tələb edir. Burada Azərbaycan tarixi romanının ilk mərhələsində tarix və yazıçı probleminə nəzər yetirəcək və onların qarşılıqlı münasibətlərinə ədəbiyyatşünaslığın mövqeyini təhlilə cəlb edəcəyik.

Məlumdur ki, bədii nəsrdə tarixi mövzulara ilk münasibət ötən yüzillikdən başladıqdan sonra yazıçı və tarix arasında da bəzi ixtilaflar olmuş, yazıçı ilə tarixçi arasında fikir ayrılıqları mövcud olmuşdur. Bunun bir səbəbi Azərbaycanda tarixin hələ lazımınca öyrənilməməsi, ayrı-ayrı tarixi hadisələr, şəxsiyyətlər haqqında müstəqil elmi araşdırmaların aparılmaması idisə, digər səbəbi də tarixlə bədii düşüncənin sərhədlərini düzgün müəyyənləşdirməməkdən irəli gəlirdi. Oxucu bədii əsərdə tarixi faktlardan daha fərqli təsvirlərə rast gələrkən tarixdən öyrəndiyi bəzi faktları başqa interpretasiyada görür, bu məlumatların onun bildiyindən fərqli olması, istər-istəməz, onu narazı salır. Bu zaman tarixçinin faktik məlumatları ilə yazıçının bədii təxəyyül süzgəcindən keçirdiyi tarixi faktların interpretasiyası oxucu tərəfindən birmənalı qarşılanmır. Eyni zamanda bədii yaradıcılığın da özünəməxsus xüsusiyyətləri və yazıçı müstəqilliyi da vardır ki, bütün bunlar bədii düşüncədə yazıçı və tarix problemini daha da aktuallaşdırır.

Əslində isə ədəbiyyat obrazlı təfəkkürdür və obrazlar vasitəsilə keçmişin qaranlıq səhifələrinə işıq tutur, onu canlandırır, tarixin mürəkkəb və dolaşıq hadisələrinə bir aydınlıq gətirir. Onun vasitəsilə bütöv bir xalqın

tarixinin müəyyən bir parçasını özünə qaytarmaq, tarixdə olan yerini, mövqeyini bərpa etmək mümkündür. Bu mənada tarixlə bədii düşüncə arasında ortaq cəhətlər az deyildir və tarixi mövzuda əsər yazan sənətkar bu missiyanı hər zaman dərk etməyə çalşır. Ola bilsin ki, bəzi əsərlərdə yazıçı tarixi hadisələrdən, faktlardan ikinci dərəcəli vasitə kimi istifadə etsin, ola da bilsin ki, tarixi faktlar yazıçının bədii ümumiləşdirməsi üçün körpü rolunu oynasın. Çünki yazıçının oxuduğu tarix ona həmin dövr haqqında dolğun, hərtərəfli məlumat vermədiyindən, o, bu faktların, hadisələrin içini bədii təxəyyül vasitəsilə doldurmağa çalışır. Valter Skott, Lev Tolstoy, Aleksey Tolstoyun tarixi romanlarında da bu tənasüb gözlənilməyə çalışılmışdır. Lakin zaman-zaman tarixi mövzuya münasibət dəyişdiyi kimi, ondan yararlanma üsulları, yolları da təkmilləşdirilmişdir. Dünya ədəbiyyatında tarixi roman janrının banisi hesab olunan Valter Skottun (1771-1832) zamanı ilə, deyək ki, XX yüzilin 30-cu illərinin tarixi fakta baxışında müəyyən dəyişikliklər vardır. Ən yaxşı tarixi roman yalnız tarixi hadisələri ardıcıllıqla təsvir edən əsərlər deyildir, bu, tarixi faktdan səthi yararlanma hesab olunur, daha çox xalqın, dövrün, zamanın həyatını, məişətini, psixolojisini, düşüncəsini bütün reallığı ilə təsvir etməkdir. Bu mənada çox zaman yazıçı ilə tarixçi arasında yaranan müəyyən mübahisələri yazıçı Ceyms Oldricin "roman həqiqətdən daha dəqiq, faktdan daha real olmalıdır" [2, 29-33] fikri tamamlayır.

Tarixi romanın yazılmasında yazıçının məsuliyyəti olduğu kimi, müstəqilliyi də vardır; bu müstəqillik hadisələrin tarixdə olduğu kimi surətini çıxarmaq deyildir, tarixdəki hadisələrdən vermək istədiyi ideyanın təzühürü üçün istifadə etməsidir. Böyük rus şairi A.S.Puşkin "Kapitan qızı" əsərində Puqaçov hərəkatını başdan-başa təsvir etməmişdir, heç bunu qarşısına məqsəd də qoymamışdır, Puqaçov hərəkatının yazıçının öz dövründə xalq arasında olan bədii inikasını çatdırmağa çalışmışdır. Aydındır ki, oxucu Puqaçov hərəkatı barədə tarix kitablarından məlumat ala bilər, ancaq bu hərəkatın mahiyyəti və Puşkin dövründə xalq təfəkküründəki, dünyagörüşündəki bədii inikasını yalnız A.S.Puşkinin "Kapitan qızı" romanı verə bilərdi.

"Data Tutaşxia" tarixi romanının müəllifi Ç.Amirecibi tarixi janrın və yazıçının tarixi mövzuya üz tutmasının məğzini, mənasını belə izah edirdi: "Yazıçı bu və ya digər dövrdə hansı məqsədlə səyahət edir? Əsərin yaranma texnologiyası, məncə, aşağıdakından ibarətdir: yazıçı ilk növbədə müəyyən bir problemi – fəlsəfi, əxlaqi, psixoloji və ya ictimai problemi qələmə alır; yəni deyək ki, konkret bir döyüşün, məhəbbətin və ya ailə münaqişəsinin deyil, məhz nüəyyən bir problemin bədii həllini həyata keçirir! Adamların müasibətləri, onların həyatı, məişəti, xarakteri – bütün bunlar yalnız materialdır. "Data Tutaşxia" romanı məni illər boyu düşündürən, narahat edən mənəvi problemdən doğmuşdur. Mən həyatı müşahidə və dərk edir, öyrənir, müəyyən bir qənaətə gəlirdim; beləcə, məndə xeyli material toplanmışdı. Sonralar məhz bu materiallar tarixi zamanı seçməkdə həlledici rol oynadı – mən romanı artıq başqa dövrə keçirə bilməzdim" [1, 100].

Yazıçı bü müsahibəsində çox doğru olaraq əsərini tarixi tədqiqat hesab etmir və tarixi həqiqətə yaxın olmağa çalışdığını bildirir. Yazıçı burada sənətkar və tarix probleminin qarşılıqlı əlaqəsini tənzimləməyə və buna müəyyən dərəcədə əməl etməyə çalışdığını bildirir. Ç.Amirecibi bir tarixçi olmadığını yaxşı başa düşür, ona görə də tarixin dili ilə danışmır, bədii təfəkkür

vasitəsilə həqiqəti çatdırmağa çalışır. Burada tarixlə ədəbiyyatı qarşı-qarşıya qoymaqdan daha çox, onların qovuşuğunu tapmaq lazım gəlir ki, tarixi mövzuda yazan bir çox yazıçılar məhz buna əməl etdiklərinə görə onlarda tarixin təsviri uğurlu alınmışdır. Yazıçının sənətkarlığı isə tarixi hadisələri (çox zaman tarixi hadisə ilə tarixi həqiqət qarışdırılır) və şəxsiyyətləri dolğun, reallığa uyğun hərtərəfli göstərməkdən ibarətdir.

Azərbaycan ədəbi mühitində yazıçı və tarix problemini ilk dəfə bədii düşüncə ilə yanaşı nəzəri fikri də eyni dərəcədə yaradıcılığında təzahür etdirən yazıçı və tənqidçi M.Hüseyn olmuşdur. Onun 1940-cı illərdə yazdığı "Yazıçı və tarix" (birinci və ikinci) məqalələri problemə aydınlıq gətirən nəzəri baza rolunu oynayır. Nəzərə alaq ki, bu məqalənin yazılmasına qədər Azərbaycan ədəbiyyatında tarixi romanın bəzi nümunələri yaranmışdı. 30-cu illərdə Y.V.Çəmənzəminlinin "Qızlar bulağı" dərc edilmiş, "Qan içində" romanı yazılmışdısa da, müəllifi repressiyaya məruz qaldığından onu dərc etdirmək mümkün olmamışdı. M.S.Ordubadinin də "Gizli Bakı", "Döyüşən şəhər", "Dumanlı Təbriz" kimi romanları janrın inkişafında müəyyən rol oynamışdı. Məqalə yazılan ərəfədə isə M.S.Ordubadinin ən yaxşı tarixi əsərlərindən biri dahi Nizami Gəncəvinin həyatından, dövründən bəhs edən "Qılınc və qələm" romanı yazılmaqda idi. Bununla belə, bu vaxta qədər ədəbi mühitdə tarixi əsər, roman, yaxud tarixi hadisəyə, fakta yazıçı münasibətilə bağlı hələ nəzəri fikir söylənilməmiş, yazıçı və tarix probleminə aydınlıq gətirilməmişdi. M.Hüsynin həm "Yazıçı və tarix", həm də “Qılınc və qələm” haqqında qeydlər” məqalələri tarixi roman janrının, eləcə də yazıçı və tarix problemini öyrənmək üçün nəzəri baza rolunu oynayır.

Məlumdur ki, bu məqaləyə qədər S.Vurğunun "Vaqif" dramında tarixi aspekt əsas yer tutduğundan tarixi nöqteyi-nəzər aktuallığını qoruyub saxlamışdır. Dramın uğurlu tamaşasından sonra tarixçilər arasında müəllifə ünvanlanan suallar yaranır; tarix bizə deyir ki, İbrahim xan "ağıllı və tədbirli dövlət xadimidir, S.Vurğun isə onu qəddar və hiyləgər göstərir. Yaxud Ağa Məhəmməd şah Qacar tarixi şəxsiyyət olaraq bugünkü tarixi kitablar tərəfindən S.Vurğun obrazından fərqli şəkildə göstərilir. Bu isə tarixlə bədii düşüncə arasında müəyyən fikir fərqliliyinin yarandığını göstərir. Maraqlıdır ki, hər iki tarixi şəxsiyyətə əsərin yazıldığı dövrdə indikindən fərqli münasibət göstərilirdi. Deməli, tarixi şəxsiyyətin, hadisələrin özü də tarix kitablarında fərqli şəkildə göstərilə bilir. Bu mənada yazıçı və tarix probleminin araşdırılmasının əhəmiyyəti daha aydın şəkildə görünür.

Tarixlə bədii düşüncə arasındakı bu uyğunsuzluq yalnız S.Vurğunun "Vaqif" dramında baş verməmişdir, demək olar ki, tarixi mövzuda yazılmış əsərlərdə bu cür ixtilaflar da olmuşdur. Tarixçilərin bu cür faktlara görə şairi (dramaturqu, yazıçını) təqsirləndirməsinə münasibət bildirən M.Hüseyn sual edirdi: "Tarixçi haqlıdırmı? Tarixçi öz nöqteyi-nəzərindən haqlı olsa da, sənətkar Vaqifin əzəmətli surətini yaradarkən, onun dövlət işindəki gözəl tədbirlərini göstərmək istərkən və onun faciəsini həqiqi şairanə zirvəyə qaldırarkən tarixin qulu olmağa məcbur deyildir" [1, 416].

S.Vurğunun İbrahim xana, yaxud Ağa Məhəmməd şah Qacara münasibətində tarixi düşüncə ilə yanaşı, bədii təxəyyül də əsas rol oynayır. Tənqidçi çox doğru olaraq İbrahim xan obrazını yaradarkən yazıçı və tarix probleminin nəzəri prinsiplərindən çıxış edir. Əgər burada S.Vurğunu

günahlandırmaq mümkünsə, onda N.Gəncəvi "İsgəndərnamə" poemasındakı İsgəndər obrazına görə qınaq obyekti ola bilər. Tarixi bütün təfərrüatı ilə öyrənən şairin yaratdığı İsgəndər obrazı ilə tarixdəki İsgəndər arasında xeyli fərqlər ortaya çıxacaqdır.

Tənqidçi M.Hüseyn burada bədii düşüncə ilə tarixi faktlar arasındakı fərqləri izah edir və çox doğru olaraq ədəbiyyatla tarixin yazılışı arasındakı qaydaların müxtəlifliyinə diqqət çəkir. Tənqidçi yazıçının tarixi materialı ilə tarixçinin faktik materialının bir-birindən fərqləndiyini, tarixi faktları nəzərə almağın vacibliyi kimi, bədii yaradıcılığın da xüsusiyyətlərini nəzərə almaq lazım olduğunu ifadə etməkdə tamamilə haqlıdır. Tənqidçi fikrini əsaslandırmaq üçün böyük rus yazıçısı L.Tolstoyun məşhur "Hərb və sülh" romanına müraciət edərək yazır: "...Tarixçi bizə deyir ki, Napoleon Bonapart böyük sərkərdə idi. Bu, doğrudur. Lakin Lev Tolstoy "Hərb və sülh" əsərində həmin Napoleonun tarixi hadisələrin hərəkətində heç bir həlledici rol oynamadığını göstərir. Sizcə, bu nə deməkdir və böyük sənətkar nə dərəcədə haqlıdır? Unutmaq olmaz ki, Tolstoy eyni zamanda filosofdur. O, tarixi öz nöqteyi-nəzərindən izah edir və Tolstoyun bu izahı onun bədii şüurunun qanunları cəhətindən doğru və ardıcıldır" [3].

Burada doğru olan həm də budur ki, əgər biz Napoleonun tarixdəki rolu, yaxud apardığı döyüşlər haqqında nəsə öyrənmək istəyiriksə, tarix kitablarından öyrənə bilərik, ancaq bunu mütləq şəkildə yazıçıdan tələb etməyə haqqımız yoxdur. Baxmayaraq ki, Napoleon haqqında onlarla tarixi əsər yazılmışdır, onun, eləcə də 1812-ci il Vətən müharibəsinin ən yaxşı təsviri L.Tolstoy tərəfindən verilmişdir. Yazıçı və tarixçi probleminin qarşılıqlı əlaqələrinin vacibliyini irəli sürən tənqidçi yazır: "Yazıçı tarixçi deyildir. Yazıçı tarix kitabı yazmır. Yazıçının təsir gücü daha dərin olduğu üçün onun hadisələrə və şəxsiyyətlərə birtərəfli yanaşmağa qətiyyən haqqı yoxdur. Yalnızı böyük həqiqətləri dürüst, hərtərəfli göstərən sənətkar həqiqi təsir gücünə malik ola bilər" [4].

Yazıçı və tarix problemi M.Hüseynin "Qılınc və qələm" haqqında qeydlər" [5] məqaləsində bir qədər də genişləndirilir. Belə ki, M.S.Ordubadi bu romanı yazmaqla Azərbaycan tarixi romanının yeni bir mərhələsinə daxil olur. Yazıçı romanda tarixi hadisə və faktlardan istifadə edərək Nizami Gəncəvinin həyatını, onun yaşadığı dövrü təsvir edir. Romanın iki baş qəhrəmanından biri (Nizami) tarixi şəxsiyyət, digəri isə (Fəxrəddin) bədii təxəyyülün məhsulu olub süjet xəttinin əsasını təşkil edir. Yazıçı dövrün tarixi hadisələrini izləməklə yanaşı, ayrı-ayrı obrazların həyatı, məişəti, sevgi macəralarına da geniş yer ayırır. Tənqidçi romanın "ədəbiyat tarixində özünə görə mövqeyi"nə qiymət verir, "ictimai hadisələri əhatə etmək" cəhətindən onun "Ordubadi yaradıcılığında müəyyən bir yer tutacağına, Nizami və onun dövrünü öyrənməyə böyük həvəs oyadacağına" [5, 580] inamını bildirir.

Maraqlıdır ki, tənqidçinin böyük yazıçıya iradları da yazıçı və tarix problemini özündə ehtiva edir və bu dəfə tənqidçi əvvəlki fikirlərini roman əsasında bir qədər də möhkəmləndirir. Məsələn, tənqidçi yazıçının Nizami obrazını modernizə etməsinə, yaxud Nizaminin danışığında Şimali və Cənubi Azərbaycan birliyinin izah olunmasına irad bildirərkən nə qədər haqlı görünürsə, "tarixi hadisələrə münasibətdə real tənasübü pozmaqda" [5, 574] tənqid etdiyi zaman haqsız görünür. Tənqidçi yazır: "Məlumdur ki, tarixi

şəxsiyyət olmaq etibarilə Nizaminin bütün xüsusiyyətlərini öz əsrinin məhsulu kimi götürmək tarixi roman müəllifinin başlıca vəzifələrindən biridir. Yəni Nizamini bugünün tələbinə modernizə etmək, onu müasirləşdirmək olmaz. Möhtərəm ədibimiz Ordubadi öz qəhrəmanını çox zaman dövrünün konkret tarixi şəraitindən ayrı təsvir etməklə və öz görüşlərinin ifadəçisinə çevirməklə müəyyən dərəcədə saxtalaşdırmış və beləliklə də romanın tarixi dürüstlüyünə xələl gətirmişdir" [5, 569].

Romanda tənqidçini narazı salan yazıçının öz qəhrəmanına bügünün nöqteyi-nəzərindən yanaşması və "bugünkü sovet adamını həyəcanlandıran məsələlərdən danışması"dır ki, bu da tarixi qəhrəmanı müasirləşdirməyə xidmət edir. Tənqidçi romandan gətirdiyi müsallara əsasən Nizaminin nitqindəki müasirliklə yanaşı, onun dünyagörüşündəki müasirliyi də nəzərə çapdırır və ona müasir don geydirməyin düzgün olmadığı fikrini irəli sürür. Yaxud romanda Nizami ilə Fəxrəddinin Şimali və Cənubi Azərbaycan məsələsini təhlil etmələrini də tənqidçi bugünün problemi hesab edir və XII yüzildən sonra yaranan bu problemin onlar tərəfindən müzakirəsinin mümkünsüzlüyünü bildirir: "Tarixdən bizə məlumdur ki, xalqımızın bu süni ayrılığı Nizami dövrünün məhsulu olmamışdır. M.S.Ordubadi həmin problemi "Dumanlı Təbriz" əsərində həll etsəydi, əlbəttə, daha düzgün olardı" [5, 572]. Professor Abbas Zamanov çox sonralar tənqidçi M.Hüseynin bu fikriylə razılaşmayaraq yazıçını müdafiə etmək yolunu tutmuşdur [6]. Tədqiqatçı Y.Axundlu isə tarixi roman janrının prinsiplərindən çıxış edərək M.Hüseynə haqq qazandırır və "Professor A.Zamanov "Qılınc və qələm" romanında müəllifi keçmiş hadisələri müasirləşməkdə qınayanları tənqid etsə də, hər halda M.Hüseynin yuxarıdakı fikriylə müəyyən dərəcədə razılaşmaq lazım gəlir" [7, 78-79] qənaəti daha doğrudur.

Əlbəttə, bunların tarixi roman janrının prinsiplərinə o qədər də uyğun olmadığı məsələsində M.Hüseyn haqlıdır, ancaq tarixi hadisəyə sovet tarix elminin gözü ilə baxılması fikrində tənqidçi haqlı görünmür. Çünki sovet tarix elminin obyektivliyinin özü bu gün şübhə altındadır: "Sovet tarix elmi hər dövrün xüsusiyyətlərini son dərəcə dürüst və obyektiv şəkildə tədqiq etdiyi kimi, bu gün tarixi roman yazan sovet müəllifi də eyni dərəcədə dürüst və obyektiv olaraq tarixi hadisələri bədii şəkildə əks etdirir" [5, 570].

Y.Axundlu "Qılınc və qələm"in tənqidçiləri ilə bir məsələdə yazıçını daha haqlı hesab edir; bu da romanda macəraçılıq üslubuna yer verilməsidir. Tədqiqatçı burada tənqidçinin deyil, roman müəllifinin tərəfində duraraq yazır: "Həm də bunlar (macəraçılıq və sevgi səhnələri – **B.Ə.**), M.Hüseynin iddia etdiyi kimi, obrazların hərəkətsiz və durğun şəkildə meydana çıxmasına gətirib çıxarmamışdır. Özü də Ordubadi tarixi çox gözəl bilirdi və öz əsərlərində tarixi hadisə və faktlara sadiq idi. Macəraçılığa gəldikdə isə, bu, onun romanlarını daha da oxunaqlı edir" [6, 7].

Tədqiqatçı bir məsələdə haqlıdır ki, macəraçılıq M.S.Ordubadinin bütün əsərlərində aparıcı xətt kimi diqqəti çəkir. O da aydındır ki, dünya tarixi romanında da macəraçılığa həmişə geniş yer verilmişdir. Görünür, bununla yazıçı oxucunu tarix kompleksindən xilas etmək, əsərdə maraq və intriqa yaratmaq yolu ilə getməyi üstün tutmuşdur. Ən maraqlı cəhət burasındadır ki, "Qılınc və qələm"dən sonra yazılan tarixi əsərlərdə də tənqidin iradları içərisində həmişə yazıçının macəraçılağa meyil etməsi başlıca yer tutmuşdur. Görünür ki, burada

müəyyən bir qanunauyğunluq da yox deyil, həm müəllifin tarixi romanlarda macəraçılığa, həm də tənqidçilərin bunu onlara irad tutmasında. Elə dünya ədəbiyyatının təcrübəsinə nəzər salsaq, bu romanlarında süjet xəttində macəraçılığın əsas yer tutduğunu söyləmək olar. Yazıçı və tarix problemi bu gün də bu və ya başqa şəkildə davam edir; postmodernizmin tarixə münasibətini və bir çox tənqidçilərin bu münasibətə etirazını qeyd etmək yerinə düşərdi.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Sənətkar və tarix (Ç.Amirecibi ilə söhbət). "Novıy mir", 1981, N11
2. Oldridj Djeyms. Pisatel i ideoloqiçeskix djunqlyax. V kn. "Sudbı romana" M., Proqress, 1975
3. Hüseyn M. Yazıçı və tarix (birinci məqalə). "Ədəbiyyat qəzeti", 1943, 9 oktyabr
4. Hüseyn M. Yazıçı və tarix (ikinci məqalə). "Ədəbiyyat qəzeti", 1943, 20 noyabr
5. Hüseyn M. Seçilmiş əsərləri. 10 cilddə, IX c., Bakı: Yazıçı, 1979
6. Zamanov A. Həmişə bizimlə. "Ədəbiyyat və incəsənət", 1972, 18 noyabr
7. Axundlu Y. Seçilmiş əsərləri. 3 cilddə, 2 c., Bakı: Əcəmi, 2013

***Baxtiar Askarov***

### The artistic thinking of the writer and the historical problem

***S u m m a r y***

The object of the given article is artistic thinking of the writer and the historical problem. It is known that in the different epochs there were the different views on history. The distortion of the historical facts, sometimes having place in the piece of literature, became the cause of the dissatisfaction of the historians, in connection with this matter objective and subjective critics sounded. In the given article leaning upon the works such writers as V. Scott, L. Tolstoy, J. Oldridge, Ch. Amirajibi, the poet S. Vurgun the attitude of the writer towards the historical facts is researched. At the same time the author touched the question of the enlightenment of the historical problem and the writer M. Hussein in national literary study from the theoretical point of view first time.

***Бахтияр Аскеров***

**Художественное мышление писателя и историческая проблема**
***Р е з ю м е***

Объектом данной статьи является художественное мышление писателя и историческая проблема. Известно, что в разные эпохи существовали разные взгляды на историю. Искажение исторических фактов, порой имеющее место в художественном произведении, становилось причиной недовольства историков, на этот счет звучала объективная и субъективная критика. В статье, опираясь на труды таких писателей, как В.Скотт, Л.Толстой, Дж.Олдридж, Ч.Амереджиби, поэта С.Вургуна, исследуется отношение писателя к историческим фактам. Одновременно автор впервые касается вопроса освещения с теоретической точки зрения исторической проблемы и писателя М.Гусейна в азербайджанском литературоведении.

# OXUDUQLARINIZ:

**Rafael HÜSEYNOV.** Ötürücülük missiyası ....................................................3

## KLASSİK İRS: TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ

**Rafael HÜSEYNOV.** Klassik ədəbi abidələrin tekstoloji bərpasında xüsusi yanaşmalar və Baba Tahir dübeytiləri ............................................................11
**Şəhla ABDULLAYEVA.** Quranın "Yusif" surəsində tərbiyəvi və irfani məqamlar ..........................................................................................................34
**Faiq ƏLİYEV.** Ərəbdilli Azərbaycan ədəbiyyatı tarixindən ..........................47
**Gülşən ƏLİYEVA-KƏNGƏRLİ.** Füzulidəki "rindü-şeyda" anlayışının ədəbi-fəlsəfi şərhi ..........................................................................................52
**İlahə HACIYEVA.** Nizami və Çakərin "Leyli və Məcnun" məsnəvilərində oxşarlıqlar və normadan kənarlaşmalar ..........................................................59
**İlahə MƏMMƏDOVA.** Rübai janrı ingilisdilli ədəbiyyatşünasların araşdırmalarında ...........................................................................................69
**İradə MUSAYEVA.** Klassik eşq fəlsəfəsi tarixində ilk roman ......................75
**Nailə MUSTAFAYEVA.** Füzuli və müasirlərinin müxəmməsləri barədə ......83
**Kəmalə NURİYEVA.** İ.Y.Kraçkovskinin yeni ərəb ədəbiyyatı sahəsində tədqiqatları ..........................................................................................99
**Samirə QOCAYEVA.** Amerika şairi Henri Uordsvort Lonqfello yaradıcılığı və Şərq motivləri ......................................................................104
**Elnarə ZEYNALOVA.** "Tuhfətul-İraqeyn" poemasından iki beytin şərhi ..108

## YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES

**Nərminə ƏLİYEVA.** Haşım bəy Saqib və onun yaradıcılığında ictimai-siyasi motivlər ..........................................................................117
**Nuranə ƏSƏDULLAYEVA.** Sovet ədəbiyyatında "ideoloji düşmən" obrazını formalaşdıran sosial-siyasi amillər ..................................................131
**Bəxtiyar ƏSGƏROV.** Bədii düşüncədə yazıçı və tarix problemi .................136
**Mahirə HACIYEVA.** Pakistanda ingilisdilli ədəbi mühitin formalaşması ..143
**Nüşabə HÜSEYNOVA.** İnternet ədəbiyyatı – yanaşma bucaqları, münasibətlər sistemi ............................................................................152
**Sevinc AYAZQIZI.** Ədəbiyyatımız – mənəvi həyatımız ............................159
**Türkan QƏDİROVA.** Cənubi Azərbaycan demokratik poeziyasında ana dili problemi ..................................................................................167
**Ülviyyə YUSİFOVA.** Abdulla Faruqun şeirlərində humanizm ideyaları ......174